# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

21 noyabr 2019-cu il

Cümə axşamı

№ 45 (3460)

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# BAKIDA DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİ KEÇİRİLİB

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV SAMMİTİN AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK EDİB




Noyabrın 14-də Bakıda Dünya dini liderlərinin II Sammiti işə başlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Sammitin açılış mərasimində iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirilib.

Sammit müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev Sammitdə nitq söyləyib.

Sonra Prezident İlham Əliyevin Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında sərəncamı oxunub.

Dövlətimizin başçısı İlham Əliyev "Heydər Əliyev" ordenini Şeyxülislam Allahşükür Paşazadəyə təqdim edib.

Sonra Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edib.

Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanov Prezident Vladimir Putinin, Türkiyə Diyanət İşləri başqanı Ali Erbaş Prezident Rəcəb Tayyib Ərdoğanın, Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi, Çeçenistan rəhbərinin müşaviri Salah Mezhiyev Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun, Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze Prezident Salome Zurabişvilinin və Bütün Gürcüstanın katolikos-patriarxı II İlyanın vikarisi mitropolit Teodor Patriarxın təbrik məktublarını oxuyublar.

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill, İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkman, Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərif, Özbəkistan Respublikası Prezidentinin dövlət müşaviri Rüstəm Kasimov sammitdə çıxış ediblər.

Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlayn dini liderlərin ülvi məqsədləri yaymasının vacibliyindən danışıb, dini liderlərin Bakı Sammitinin əhəmiyyətinə toxunub, KAİCİİD Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammar isə gənc liderlərin mədəniyyətlərarası dialoqda, tolerantlığın qorunmasında daha böyük rol oynamasının önəminə yönəldib.

Sonra Qüds-Yerusəlimin ortodoks baş ravini Şlomo Amar, BMT Baş katibinin humanitar məsələlər üzrə xüsusi məsləhətçisi Abdallah əl-Mətuq və başqaları çıxışlarında terrorizmin bütün təzahürlərini pisləyərək, gənclərə din haqqında məlumatların daha dolğun çatdırılmasının əhəmiyyətini vurğulayıblar, mədəni müxtəlifliyin qorunub saxlanılmasının vacibliyini qeyd ediblər.

*****

Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində keçirilən Sammitdə dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri iştirak ediblər.

Sammitin yekunlarına dair Bakı Bəyannaməsi qəbul olunub.

Xatırladaq ki, Prezident İlham Əliyev bu il aprelin 11-də Dünya dini liderlərinin II Bakı Sammitinin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb.

Noyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyevin adından Dünya dini liderlərinin II Bakı Sammitinin iştirakçılarının şərəfinə ziyafət verilib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ziyafətdə iştirak ediblər.

Sonra konsert proqramı olub.

# PREZİDENT İLHAM ƏLİYEV PİRŞAĞI DƏMİR YOLU STANSİYASININ AÇILIŞINDA İŞTİRAK EDİB

Noyabrın 19-da "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı Pirşağı stansiyasında Sabunçu-Pirşağı xəttinin rəmzi açılışını bildirən lenti kəsdi və stansiya ilə tanış olub.

Bildirilib ki, Abşeron dairəvi dəmir yolu xəttində ümumilikdə 17 stansiya və dayanacaq var. Bakı sərnişin-Sabunçu-Pirşağı-Sumqayıt sərnişin-Xırdalan-Biləcəri-Bakı sərnişin dairəvi dəmir yolu xəttinin ümumi uzunluğu 191,6 kilometrdir. Aparılan yenidənqurma işləri çərçivəsində Zabrat-1, Məmmədli dayanacaqları, Pirşağı və Zabrat-2 stansiyaları yenidən qurulub.

Dövlətimizin başçısı Pirşağı stansiyasından qatarla Zabrat-2 stansiyasına yola düşüb.

Prezident İlham Əliyev Zabrat-2 stansiyasına gəldi. Yenidənqurma işləri çərçivəsində bu stansiya da müasir səviyyəyə çatdırılıb.

Sonra dövlətimizin başçısı Zabrat-2 stansiyasından Bakı Dəmir Yolu Vağzalına yola düşüb.

Bakı Dəmir Yolu Vağzalına gələn Prezident İlham Əliyevə burada "Defektoskop" infrastruktur-diaqnostika kompleksi barədə məlumat verilib.

Dövlətimizin başçısı burada bir qrup dəmiryolçu ilə görüşüb.

Sonra dövlətimizin başçısı metronun "28 May" stansiyasının qarşısında vətəndaşlarla görüşüb, onlarla söhbət edib.

Daha sonra Prezident İlham Əliyev Dəmir Yolu Muzeyi ilə tanış olub.

***Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 14-də Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüblər.***

***Məşhur yumorist Maksim Qalkinin Heydər Əliyev Mərkəzində yaradıcılıq axşamı olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yaradıcılıq axşamına baxıblar.***

**Ölkəmizin rəhbəri noyabrın 14-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı noyabrın 14-də Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Noyabrın 14-də ölkəmizin rəhbəri Azərbaycan–Rusiya mədəni əlaqələrinin möhkəmləndirilməsində xidmətləri olan mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı noyabrın 15-də Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Sultan Tofiq oğlu Dadaşovun 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri noyabrın 15-də Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarı qəbul edib.***

❖❖❖❖❖

**Noyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarı qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimzin başçısı noyabrın 15-də Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru qəbul edib.***

❖❖❖❖❖

**Noyabrın 15-də ölkəmizin rəhbəri Ağsu və Şamaxı rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 15-də Latviya Respublikasının Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Egils Levitsə təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı noyabrın 15-də Oman Sultanlığının milli bayramı münasibətilə Sultan Əlahəzrət Qabus bin Səidə təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri İlham Əliyev noyabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul edib.***

# YENİ RƏİS ŞƏXSİ HEYƏTƏ TƏQDİM OLUNDU

***Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov DİN-də Baş Narkotiklərlə Mübarizə İdarəsinin yeni rəisi, polis polkovniki İslam Hümbətovu bu qurumun şəxsi heyətinə təqdim edib...***

**Qanlı aksiyalar silsiləsindən 1991-ci il noyabrın 20-də Qarakənd üzərində içərisində Azərbaycan dövlət və hökumət nümayəndələrinin olduğu vertolyotun partladılması dəhşətli hadisələrdən biri kimi yaddaşlarda qalıb...**


*Bax səh.2.*


# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il noyabr ayının 30-da Sumqayıt Şəhər Polis İdarəsində Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.**

**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.**

**Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.**

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2019-cu il noyabr ayının 23-də Göyçay Rayon Polis Şöbəsində Göyçay, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Ucar, Kürdəmir, Ağdaş şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# ARZULARINI BELƏ İFADƏ EDİRLƏR...

**Hər gün redaksiyamıza yüzlərlə təşəkkür məktubu daxil olur ki, onlar polisin xidmətini yüksək dəyərləndirir və buna görə DİN rəhbərliyinə minnətdarlıqlarını yazırlar.**

**Bakı şəhər sakini Afət Hüseynova** öz təşəkkür məktubunda yazır: "Mən dəfələrlə bir çox xarici ölkələrdə olmuşam. Hər ölkənin tarixi, polisi və həyat tərzi ilə maraqlanmışam. Müqayisə etdikdə isə qürurlanıram. Ölkəmiz sabitlik adasıdır. Ölkəmizdə ictimai-sabitlik, cinayətkarlıqla mübarizə yüksək səviyyədə təmin olunur. Əlbətdə ki, əmin-amanlıq şəraitində yaşayıb-yaratmaq çox rahatdır. Biz vətəndaşların öhdəsinə isə birlik, vətənpərvərlik və hər bir işimizə vicdanla yanaşmaq düşür ".

**Sumqayıt şəhər sakini Aytəkin Bayramova** məktubunda yazır: "Mən Azərbaycan Polisi ilə fəxr edirəm. Müşahidə etmişəm ki, hamı polisimizə güvənir. Və bu təsadüfi deyil. Bizim polisimiz peşəkar, vicdanlı və mərhəmətlidir. Az adam tapılar ki, bir dəfə də olsun polis ona kömək etməmiş olsun. Mənim 2 dəfə problemim olub, müraciətimə tez bir zamanda baxılıb və obyektiv həllini tapıb".

**Paytaxt sakini Orxan Qafarzadə** də ölkəmizdəki sabitliyə, əmin-amanlığa, cinayətkarlıqla mübarizənin yüksək təmininə görə daxili işlər orqanları əməkdaşlarına minnətdarlığını yazır, onlara gərgin və şərəfli xidməti fəaliyyətlərində uğurlar diləyir.

**Başqa bir məktubu Aytən Tağıyeva** yazır: "Yaşadığım Bakı şəhərindəki mənzildə baş verən oğurluq hadisəsi məni çox qorxutmuşdu. Polisə müraciət etdim. Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində tez bir zamanda oğurluğun üstü açıldı və əşyalarım geri qaytarıldı. Mənə dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə Suraxanı Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığımı bildirirəm".

*A.Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# YENİ RƏİS ŞƏXSİ HEYƏTƏ TƏQDİM OLUNDU

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov DİN-də Baş Narkotiklərlə Mübarizə İdarəsinin yeni rəisi, polis polkovniki İslam Hümbətovu bu qurumun şəxsi heyətinə təqdim edib.**



Polis polkovniki İ.Hümbətovu uzun illər daxili işlər orqanlarında müxtəlif rəhbər vəzifələrdə xidmət etmiş təcrübəli polis zabiti kimi xarakterizə edən general-polkovnik Vilayət Eyvazov baş idarənin əməkdaşlarına müasir dövrün tələb və çağırışları kontekstində xidməti fəaliyyətin daha da təkmilləşdirilməsi üçün konkret tapşırıq və tövsiyələrini verib, qarşıda duran yeni vəzifələrdən danışıb.

Nazir insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, bir çox ağır cinayətlərin törədilməsinin əsas səbəblərindən, transmilli mütəşəkkil cinayətkarlığın qlobal xarakter almış ən qorxulu və zərərli növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qətiyyətli mübarizənin əhəmiyyətini qeyd edib, bu mübarizənin dövlət siyasəti olmaqla ölkə Prezidentinin daim nəzarətində olduğunu vurğulayıb.

Daxili İşlər naziri V.Eyvazov baş idarənin struktur qurumları arasında qarşılıqlı əlaqələrin effektiv təşkilini, əməkdaşların peşəkarlığının, tapşırılan sahəyə cavabdehliyinin artırılmasını, tələbkarlıq və nəzarətin daha da gücləndirilməsini tələb edib. O, narkotiklərin qanunsuz dövriyyəsilə məşğul olan şəxslər barədə əməliyyat məlumatlarının əldə edilməsinin, onların ifşa olunması üçün ixtisaslı əməliyyat tədbirləri hazırlanıb həyata keçirilməsinin, bu sahədə xarici dövlətlərin müvafiq qurumları ilə informasiya və təcrübə mübadiləsinin daha səmərəli qurulmasının vacibliyini diqqətə çatdırıb.

*19 noyabr 2019-cu il.*

# POLİS AKADEMİYASI BİRİNCİ OLDU

**Noyabrın 12-də Heydər Əliyev Mərkəzinin təşkilatçılığı və Təhsil Nazirliyinin dəstəyi ilə "Heydər Əliyev və Azərbaycan tarixi" mövzusunda reallaşdırılan layihədə bu il 49 ali təhsil müəssisəsinin komandaları iştirak edib.**



Bilik yarışında DİN-in Polis Akademiyasını təmsil etmələri üçün «İctimai elmlər» kafedrasının rəisi, polis mayoru Rəhim Məcnunov və kafedranın baş müəllimi, polis mayoru Rəşad Qasımov tərəfindən bilik səviyyələri, ümumi dünyagörüşləri nəzərə alınmaqla 8 nəfərdən (6 nəfər əsas heyət- IV kurs III taqım kursantı Əlizadə Bəxtiyar; V kurs IV taqım kursantı Mirzəyev Nurlan; IV kurs II taqım kursantı Hüseynov Rövşən; IV kurs I taqım kursantı Ağayev Taleh; III kurs VI taqım kursantı Cahangirov Rəhman; III kurs I taqım kursantı Ələkbərov İlkin;



2 nəfər ehtiyat - IV kurs V taqım kursantı Ağamalıyev Yunis; IV kurs II taqım kursantı Ağamirzəyev Rəvan) ibarət komanda təşkil edilmişdir.

Tədbirdə məlumat verilib ki, 2014-cü ildən etibarən, hər il həyata keçirilən layihə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi, irsinin yaşadılması və gənclər arasında təbliği, eyni zamanda, gənc nəslin elmə, maarifləndirici yarışlara marağının artırılması məqsədini daşıyır. Builki yarış isə 12 noyabr - Konstitusiya Gününün qeyd olunduğu tarixdə keçirilir. Ümummilli liderin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci ilin məhz bu gün ümumxalq səsverməsi ilə qəbul edilib.

Diqqətə çatdırılıb ki, "Heydər Əliyev və Azərbaycan tarixi" bilik yarışında iştirak edən komandalar hazırlıq məqsədilə oktyabrın 29-dan noyabrın 7-dək Mərkəzdəki Heydər Əliyev Muzeyini ziyarət edib, burada toplanmış məlumat və eksponatlar, foto və videomateriallarla tanış olublar.

Sonra tələbələrin yarışa hazırlığını əks etdirən videoçarx təqdim edilib.

Bu il Azərbaycan-Fransız Universitetinin komandası ilk dəfə, Naxçıvan Dövlət Universitetinin komandası isə dördillik fasilədən sonra yenidən bilik yarışına qatılıb.

Münsiflər heyətində Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun nümayəndələri təmsil olunublar.

Bilik yarışında Daxili İşlər Nazirliyinin Polis Akademiyası birinci, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası, ikinci, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti Akademiyası komandası üçüncü yerlərə layiq görülüblər.

Qalib komandalara diplom və medallar, qalib komandanın kapitanına kubok təqdim edilib.

Yarışın qalibi olan Polis Akademiyasının komandasının kapitanı Bəxtiyar Əlizadə bu cür genişmiqyaslı bilik yarışlarının təşkil edilməsində böyük rolu olan Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib. Qeyd edib ki, ulu öndərin irsinin, tariximizin öyrənilməsi hər bir Azərbaycan vətəndaşının borcudur.

*Natiq Abdullayev,*
*polis kapitanı*

# HƏRBİ AND İÇDİLƏR

**Bu günlərdə DİN-nin Daxili Qoşunlarında xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib. Tədbirdə Daxili Qoşunların Baş İdarəsindən yüksək rütbəli zabitlər, Veteranlar Şurasının üzvləri və əsgər valideynləri iştirak ediblər.**



Mərasim ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Nümunəvi Göstərici Hərbi Orkestrin müşayiəti ilə dövlət himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri tərəfindən əsgərlərə hərbi andın mənası, öz xalqına, Azərbaycan Respublikasına sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələr, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələbləri xatırladılıb.

Sonra Daxili İşlər nazirinin müavini - Daxili Qoşunların komandanının əsgərlərə ünvanladığı təbriki oxunub.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların Daxili Qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları qeyd edilib. Bundan əlavə, məktubda Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı vurğulanıb, sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Çıxış edənlər əsgərləri səmimi-qəlbdən təbrik ediblər, ulularımızdan miras qalmış mərdlik, cəsarət, Vətəni sevmək imtahanından şərəflə, ləyaqətlə çıxan Azərbaycan əsgərinin xalqımızın ümid yeri olduğu fəxr hissi ilə vurğulanıb.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

*Ə.Ruhiyyə*

# QƏZA YOX, TERROR İDİ

**Türkmənçay müqaviləsindən dərhal sonra Azərbaycanda ermənilərin yerləşdirilməsi siyasəti nəticəsində 1828-1829-cu illər ərzində İrandan və Türkiyədən ölkəmizə 1 milyon 200 min erməni köçürülmüşdür. Ermənilər özlərinə Azərbaycanın müxtəlif ərazilərində yer etdikdən sonra azərbaycanlıları sıxışdırıb çıxarmış, qarətlər, talanlar etmiş və adamları vəhşicəsinə öldürmüşlər.**

Qərbi Azərbaycan ərazisindəki öz dədə-baba torpaqlarında yaşayan 300 mindən çox soydaşımız dəhşətli, ağlagəlməz vəhşiliklərlə üzləşərək doğma od-ocaqlarını tərk etməyə məcbur oldular. 1988-ci ildən Dağlıq Qarabağla və Ermənistanla həmsərhəd bölgələrdə yaşayan həmvətənlərimiz Moskvaya arxalanan ermənilərin terrorları, təcavüzləri ilə üzləşdilər. Havadarlarına arxalanan bədnam qonşularımız göz dikdikləri ərazilərimizi zaman-zaman ələ keçirdi.

Tariximizin qanlı səhifələrindən olan Bakıda törədilən 20 Yanvar faciəsi 134 soydaşımızın qətlinə, yüzlərlə günahsız insanın ömürlük şikəstliyinə səbəb oldu.

Bu qanlı aksiyalar silsiləsindən 1991-ci il noyabrın 20-də Qarakənd üzərində içərisində Azərbaycan dövlət və hökumət nümayəndələrinin olduğu vertolyotun partladılması dəhşətli hadisələrdən biri kimi yaddaşlarda qalıb.

Vertolyotun vurulması nəticəsində ölkəmizin bir çox dövlət xadimləri və jurnalistlər həlak oldular. Faciədən dərhal sonra hadisə yerinə getmək mümkün olmadı. Həmin vaxt ermənilərin güclü mövqe tutduğu əraziyə keçmək üçün onlara himayədarlıq edən sovet qoşun kontingentinin rəhbərliyi icazə verməliydi. Faciənin baş verdiyi əraziyə gələnlər isə vertolyotda yerdən açılan atəş izlərini müəyyən etdilər.

O vaxtkı iqtidar itaətkar mövqe tutaraq xalqın üzləşdiyi faciəni ört-basdır etməyə çalışdı. Bir qədər sonra ehtimal olunduğu kimi, bu cinayətin erməni terrorçularının növbəti qanlı aksiyalarından biri olduğu bilindi.

*N. Aytəkin*

# TƏCRÜBƏ, OPERATİVLİK

**Polisdən razılığını, ona "çox sağolu" göndərdiyi məktubda ifadə edən vətəndaş yaxşı bilir ki, bir cinayətin üstünü açmaqdan ötrü polis gecəsini gündüzünə qatır, şahidləri dindirir, ən xırda detalları belə diqqətdə saxlayır. Bu iş zərgər dəqiqliyini sevir. Polis elə etməlidir ki, zərərçəkənin də, zərərverənin də hüququ pozulmasın, haqqın tərəzisi nə sağa əyilsin, nə də ki, sola. Bəzən biri-birinin qanına susayanları barışdırmaq üçün polisin barışdırıcı mövqe tutmasının da az şahidi olmamışıq.**



Bakı Dağ Yahudiləri Dini İcmasının məktubu diqqətimi çəkdi. Həssas bir mövzuya polisin vətəndaş mövqeyi, həmçinin öz vəzifə borcunu layiqincə yerinə yetirməsi onlar tərəfindən təqdir olunurdu.

İcmadan yazırlar ki, Yasamal rayonu ərazisində yerləşən qəbirstanlıqda aparılmış abadlıq işləri Berlindəki "Bakinets" cəmiyyətinin sədri Elmira Əşrəfovanın etirazına səbəb olub. Buna görə də o, baş verənlərlə bağlı polisə müraciət edərək məsələnin araşdırılaraq hüquqi qiymət verilməsini istəyib. Polis tərəfindən hadisə yerinə baxış keçirilib və onun etirazını ifadə etdiyi fikirlər öz təsdiqini tapmayıb.

Onlar məsələyə yanaşmasına və mütəxəssis kimi düzgün qərar verdiyinə görə iyirmi minlik Bakı dağ yahudiləri adından Yasamal RPİ-nin baş müstəntiqi, polis mayoru Mehrab Məmmədova təşəkkürlərini bildirirlər...

Düzü, qəbir daşlarının təhqir olunması, dağıdılması həssas mövzudur və bu, həm insanlığa, həm də qanuna ziddir. Vətəndaş məmnunluğuna xidmət edən mövqe sərgilədiyinə, düzgün qərar qəbul etdiyinə görə təşəkkürə layiq bilinən həmkarımızla həmsöhbət olmaq üçün Yasamal RPİ-yə yollandım. İdarə rəisi, polis polkovniki Cəmil Əmirov məktubdan məlumatlı olduğunu bildirdi. Dedi ki, polis mayoru Mehrab Məmmədov intizamlı, gənc olsa da peşəkar müstəntiqdir.

Mükafatı təşəkkür olan, polisin adına və andına sadiq həmkarımızla da görüşdük.

Sözügedən məsələ ilə bağlı bunları dedi: "Əvvəlcə vətəndaşın etiraz məktubu ilə bağlı Bakı Dağ Yahudiləri Dini İcmasını yazılı və şifahi şəkildə məlumatlandırdım. Məlum oldu ki, icma tərəfindən 2016-və 2017-ci illərdə baxımsız qəbirstanlıq abadlaşdırılmışdır. Buna lazım olan pulun bir hissəsi qəbirstanlığın çevrəsindəki dəmir barmaqlıqların kəsilərək satılması hesabına ödənilmişdir. Göstərilən məbləğ sinaqoqun nömrələnmiş və möhürlənmiş qəbzləri ilə mədaxil edilmişdir. Qalan xərclər isə icmanın öz daxili imkanları hesabına xərclənmişdir. Sözügedən məsələ ilə bağlı Cinayət Məcəlləsinin 245-ci maddəsinə uyğun heç bir hərəkət qeydə alınmamışdır. Yəni abadlaşdırma zamanı heç bir qəbir dağıdılmamış, korlanmamış və üzərində təhqiredici hərəkətlər olmamışdır. Vətəndaşın müraciəti ilə bağlı cinayət işinin başladılması Azərbaycan Respublikası CPM-nin müvafiq maddələri ilə rədd edilmişdir".

O, 1981-ci ildə Gəncədə doğulub. 2001-ci ildən daxili işlər orqanlarına qəbul olunub. İlk xidmət yeri Gəncə Şəhər Baş Polis İdarəsi olub. DİN-in Polis Akademiyasını bitirib. Bir çox vəzifələrdə xidmət edib. 2016-ci ildə Şəmkir RPŞ-də müstəntiq vəzifəsinə irəli çəkilib. 2019-cu ilin iyunundan hazırda tutduğu vəzifədə xidmət edir.

*Hafiz Təmirov*

***"Mən ordakı hadisələrin heç birini unutmamışam. Dünən, srağagün etdiyim söhbətlər yadımdan çıxa bilər, amma Əfqanıstanla bağlı heç nə yaddaşımdan silinə bilməz… Müharibədə insanlar təkcə ölmür, itmir, həm də tapılır"…***

Bu fikirlər "Əfqanıstan uçurumu" romanı ilə ədəbiyyatsevərlərin rəğbətini qazanmış mərhum yazıçı-jurnalist Zakir Sadatlının müsahibəsindəndir.

"Sovet ordusunun 15 min itki verdiyi Əfqanıstan müharibəsində 10 mindən çox azərbaycanlı iştirak edib, onlardan 208-i həlak olub, 7 nəfər isə itkin düşüb. Bu gün daxili işlər orqanlarında da Əfqanıstanda xidmət etmiş, müharibənin odunu-alovunu görmüş və torpaqlarımıza erməni təcavüzü başlayanda da ön sıralarda sinəsini qabağa verərək döyüşən polislərimizi, təəssüflər olsun ki, gənclərimiz tanımırlar. Onları tanıtmaq üçün özümüz tanımalıyıq".

**Polis polkovniki Akif Qorçubəylinin** bu fikirlərindən sonra əmin oldum ki, Vətən, torpaq uğrunda qanını, canını fəda edənlər heç zaman unudulmurlar. Onları xatırlayanlar hər zaman olub və bundan sonra da olacaq.

# ƏFQANISTANDAN... QARABAĞA



**Polis polkovniki Elman Kərimov və polis polkovnik-leytenantı Zakir Salamov** gəlişimin səbəbini bildiklərindən Əfqanıstanla, Qarabağla bağlı acılı-şirinli xatirələrinin boy verdiyi ağlı-qaralı şəkillərə baxıb gözlərini uzaqlara dikmişdilər. Nəyi, kimləri xatırladıqlarını bilməsəm də ürəklə əlbəyaxa olmağın insana necə əzab verdiyini hər ikisinin gözlərindən oxuya bilirdim.

Elman Kərimov o illəri belə xatırlayır: "Əfqanıstan deyiləndə gözlərimiz önünə dünən Rusiyanın, bu gün isə qərbin poliqonu olan dövlət gəlir. Bizim hərbi hissəmiz Əfqanıstanda idi və mən tərxis olunmağımdan bir neçə gün əvvəl idmanla bağlı tədbirə qatılmışdım. Gələndə isə mənə hərbi hissəmizin mücahidlər tərəfindən yerlə-yeksan olunduğu, əsgərlərin isə qırıldığı barədə məlumat verdilər. Bəlkə də Allahın mənə yazığı gəlmişdi və mən ordan sağ çıxmışdım.

O, 1966-cı ildə Gürcüstanda doğulsa da Bakıda böyüyüb boya-başa çatıb. İndiki İqtisad Universitetini və Polis Akademiyasını bitirib. Müharibənin ilk günlərindən döyüşün ön sıralarında olub. Daxili İşlər orqanlarında 1987-ci ildən xidmət edir.

Zabit rütbəsini də döyüşlərdə fərqləndiyinə görə alıb. Şuşanın, Ağdamın, Laçının, Goranboyun müdafiəsində iştirak edib. Murovda 63 gün qarın içində qalıb. "Bu gün adları Azərbaycanın Milli Qəhrəmanı kimi tariximizə düşmüş, Azərbaycanı bütün varlığı ilə sevən, milliyyətcə rus olan Yuri Kovalyovun adını iftixarla çəkirəm. Çünki Çaykəndin alınmasında onun böyük əməyi var. Çaykənd iki dəfə düşməndən azad edilib. Biz ermənilərin içinə məhz həmin oğulların sayəsində girirdik. Çünki rus olduqlarına görə ermənilər həm onlardan qorxur, həm də onları özlərinə xilaskar bilirdilər. Beləcə bəzi kəşfiyyat məlumatları da əldə edirdik".

1992-ci ildə DİN-ə Baş İctimai Təhlükəsizlik İdarəsinə inspektor təyin olunub, sonra müxtəlif vəzifələrdə çalışıb. 2016-cı ildən BMİ-də Xidmətin Təşkili İdarəsinin rəis müavinidir. 2005-ci ildə "İgidliyə görə" medalı ilə təltif edilib.

Onun da deyiləsi, yazılası çox sözü var. Adətən deyirlər ki, şəhər uşaqları ağır şəraitə dözümsüz olurlar. Ancaq bu heç də belə deyil. Polis polkovnik-leytenantı Zakir Salamov Bakıda doğulub boya-başa çatsa da "dünyanın poliqonu" olan Əfqanıstanda ağlasığmaz çətinliklərə dözüb, 1988-ci il hadisələrindən sonra Vətənimizin bütövlüyü uğrunda yenidən döyüşlərə atılan oğullardandır.

1983-cü ilin aprelini heç vaxt unutmur. Həmin gün hərbi xidmətə yola düşüb. Dəniz vağzalından gəmi ilə Vətəndən ayrılıb. Krasnovodskidən Düşənbəyə, Düşənbədən isə Termes şəhərinə yola düşəndə vəziyyətin nə yerdə olduğunu anlayıb. Çünki o yerlərə Əfqanıstan "havası" daha yaxın idi. Əfqanıstandan gəlmiş kursantların dağlıq ərazilərdə onlara təlim keçmələri qarşıda nələrin olacağından xəbər verirdi. Kundus şəhərindən Daşkurqana yola düşüblər və elə ordaca hərbi biletlərini təhvil verib həyatın və komandirlərin ixtiyarına veriliblər. İki il altı ay hərbi xidmətdə olub və Palixomruda döyüş maşının minaya düşməsi nəticəsində ayağından yara alıb.

İndi zarafatla xatırlasa da diqqət çəkən məqamlardan biri də o idi ki, onları Çexislovakiyada xidmət adı ilə sonradan Əfqanıstana aparıblar. Türkmənistanda deyiblər ki, sizlər Əfqanıstana gedirsiniz. 1985-ci ildə Vətənə qayıdıb.

Həmkarımız 1988-ci ildə daxili işlər orqanlarına qəbul olunub. İyirmi yanvar faciəsinin canlı şahididir. 1991-ci ildə təhsilini artırmaq üçün N.Rizayev adına Xüsusi Orta Milis Məktəbinə göndərilib. 1993-cü ildə məktəb akademiya statusu alanda təhsilini orda davam etdirib. Kursant olarkən də DİN-in əmri ilə Goranboya ezam olunublar. Döyüş yolu, beləcə, başlayıb…

Zabit kimi ilk xidmət yeri Xəzər RMİ olub. Səbaildə, Sabunçuda xidmət edib. Hazırda BMİ Xidmətin Təşkili İdarəsinin baş inspektorudur. İki övladı var. Böyük oğlu Polşada, kiçiyi Prezident Yanında Dövlət İdarəçilik Akademiyasında təhsil alır...

# KÖMƏYƏ ÇATANLAR

## ONLAR SUDA DA, QURUDA DA SİZİNLƏDİR

**"Onlar olmasaydı bəlkə də indi övladlarım həyatda yox idi. Dənizin ortasında köməksiz qalan balalarımı polislər xilas etdilər və bu gün bir ana kimi göylərə açılan əllərim onlara duaçıdır. Xəzər nə bilsin ki, onun qoynunda həyatını riskə atanları gözü yolda doğmaları, əzizləri gözləyir. Mənim polisim xilaskardır, o həyatını təhlükəyə atıb bizi qoruyur. Bütün köməyə çatanların dadına Haqq özü çatsın"...**

DİN-ə ünvanlanmış və bir ananın göz yaşlarına bələnmiş bu məktub bu gün Azərbaycan Polisinə qara yaxanlara, onun xilaskarlıq missiyasına kölgə salanlara ən tutarlı cavabdır. Sosial şəbəkələrdə "qəhrəmanlıq salnaməsi" yazanların zurnasına zuy tutanların, onları təlimatlandıraraq ölkəmizdəki sabitliyi pozmağa qrant gücünə ürəkləndirənlərin sərhədlərimizin o üzündə olduğu hər birimizə bəllidir.

Cümhuriyyətimizin yaşıdı, ötən əsrin kabusuna çevrilmiş "Əfqanıstan uçurumundan" sağ-salamat çıxan, içdiyi Vətən andına sadiqliyini bir daha nümayiş etdirmək və müstəqilliyinə yenidən qovuşmuş Azərbaycanı düşməndən, eləcə də, ona arxa duranlardan qorumaq üçün Azərbaycan Polisi sinəsini Vətənə sipər edib onun müdafiəsinə qalxdı. Sırasından onlarla igid oğul şəhidlik zirvəsinə ucalıb ölümsüzlüyə qovuşdu.

"Bu gün daxili işlər orqanlarında xələflərinin yolunu əzmlə davam etdirən gənclər var və onların xidmətdə, idmanda, təhsildə qazandığı hər bir uğur bizim qürurumuzdur". Bu fikirləri **DİN NBPİ-nin Su Nəqliyyatında Polis İdarəsinin rəisi, polis polkovniki Rövşən Eyyubov** dedi.

Bu ilin müvafiq dövrünün nəticələrinə nəzər saldıqdan sonra rəis diqqətimizə çatdırdı ki, onların fəaliyyəti spesifik xarakter daşısa da yenə də əsas vəzifələri cinayətkarlıqla mübarizə, əhalinin əmin-amanlığının, asayişin qorunması və qanunun aliliyinin təminidir. Qanunsuz balıq ovunun, su sahəsinin çirklənməsinin, qanunsuz ov aparılmasının qarşısının alınmasında sayıqlıqlarını bir an da olsun itirmirlər. Yeri gəlmişkən, asan qazanc əldə etmək üçün gigiyenik qaydalara riayət etmədən balıq və balıq məhsullarını hazırlayaraq insanlara satan bəzi işbazların qarşısı da qətiyyətlə alınır.

Və müxtlif saytların manşetinə çevrilən "Su Nəqliyyatında Polis İdarəsinin əməkdaşları bayrağımızı ucaltdı" başlıqlı xəbərlərə münasibət bildirməsini polis polkovniki Rövşən Eyyubovdan xahiş edəndə, bu barədə onların özlərinin danışmasını məsləhət gördü.



**Polis leytenantı Ayaz Abbasov** deyir ki, Gürcüstanda keçirilən yarış ciu-citsudan dördüncü dünya çempionatı idi. İyirmi ölkədən 200 idmançının iştirak etdiyi yarışa Azərbaycan ilk dəfə qatılmışdı və iyirmi bir nəfərlə təmsil olunurdu. "Yarışda çox güclü idmançılar vardı və mənim ilk rəqibim polşalı idi. Ona qalib gəldikdən sonra psixoloji baxımdan özümü rahat hiss etdim və ikinci döyüşdə çexiyalıya qalib gəlməkdə elə də çətinlik çəkmədim. Üçüncü döyüşümdə isə açıqdan-açığa hakimlərin haqsızlığının və tərəfkeşliyinin qurbanı oldum. Ciu-citsu Federasiyasının prezidenti polşalı olduğuna görə üstünlüyü onlara-polşalılara verirdilər. Azərbaycanın və qardaş Türkiyə idmançılarının hər çəkidə medal qazandığını görüb daha çox sıxışdırmağa başladılar. Bu yarışdan əliboş dönmədim və ölkəmizə bürünc medal gətirdim." Qeyd edək ki, iyirmi bir idmançımızdan 20-si bu dünya çempionatında səkkiz qızıl, səkkiz gümüş və dörd bürünc medal qazanıb.

Ayaz Abbasov ötən il sambo və silahsız özünümüdafiə üzrə keçirilən DİN birinciliyində ikinci və üçüncü yerin sahibi olub. Bu il də DİN birinciliyində 75 kiloqrammda silahsız özünümüdafiə üzrə üçüncü yeri tutub. Akrobatikadan idman ustasıdır. O, 1985-ci ildə Bakıda doğulub. Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetini və Polis Akademiyasını bitirib. 2013-cü ildə daxili işlər orqanlarına qəbul olunub.

Üz-gözündəki sıyrıq izləri həmkarımız, **polis serjantı Fərid Əhmədovun** keçirdiyi ağır "döyüş"lərdən xəbər verirdi. Öyrəndik ki, o, hərbi xidməti bitirdikdən sonra idmanın Kempo ciu-citsu növü ilə məşğul olub. İlk dəfə beynəlxalq turnirdə ölkəmizi 2017-ci ildə Macarıstanda keçirilən dünya çempionatında təmsil edib. "Macarıstanda üç döyüş keçirdim. Rumun, macar, polşalı idmançılara qalib gəlsəm də dördüncü döyüşdə rəqibimin təcrübəsi öz sözünü dedi. Ruhdan düşmədim və 2018-ci ildə Bakıda keçilən Avroasiya və Avropa çempionatında rəqiblərimə şans vermədim. İdmançılar tərəfindən yüksək qiymətləndirilən kəmər döyüşlərinin qalibi olmuşam. Gürcüstanda keçirilən bu yarış da bir sınaq idi və bürünc medal qazandım. Bu sonuncu yarışda əslən erməni olan gürcü soyadlı hakimlərin "sayəsində" rəqiblərimiz qələbə qazandılar. Qarşıda hələ çox yarışlar var və bir idmançı kimi bizlərə yaradılan şəraitdən çox razıyıq".

O, bu günlərdə Karate-do Federasiyasının təşkilatçılığı ilə Milli Dirçəliş gününə həsr olunmuş yarışa qatılıb və kəmər döyüşündə qalib olub.

Polis serjantı Fərid Əhmədov 1994-cü ildə Zaqatalada doğulub. 2016-cı ildən sıralarımızdadır.

*Hafiz Təmirov,*
*polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

## POLİS ORQANLARINDA ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 100 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir. Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında keçirilir. Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş, Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayan və qeydiyyatda olan şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

Müsabiqə qaliblərinin təyinatı zamanı ilk növbədə həmin rayonda yaşayış şəraiti olanlara üstünlük veriləcək və təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il noyabr ayının 18-dən dekabr ayının 18-dək **http://www.mia.gov.az/index.php?/az/content/29799/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***- şəxsiyyət vəsiqəsi;***
***- ali təhsil haqqında diplom;***
***- hərbi bilet (kişilər üçün);***
***- əmək kitabçası (olanlar üçün);***

Təqdim olunmuş sənədlər əsasında şəxsin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır.

"Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları", test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin **www.mia.gov.az** ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları: (012) 590-92-37; (012)-590-80-66. (012) 590-93-27; (012) 590-93-45; 012) 590-93-64; (012) 590-95-23.**

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜZRƏ MÜSABİQƏNİN TEST İMTAHANININ PROQRAMI

Daxili işlər orqanlarının orta rəis heyəti vəzifələrində xidmətə qəbul üzrə müsabiqənin test imtahanları mərhələsində namizədlər məntiqi nəticə çıxarmaq qabiliyyətini müəyyən edən sualları cavablandırmaqla yanaşı, aşağıdakı qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə mükəmməl hazırlıq nümayiş etdirməlidirlər:

**Qanunvericilik aktları və nəzəri bilik sahələri:**

-Azərbaycan Respublikasının Konstitusiyası.
-Dövlət və hüquq nəzəriyyəsi.
-Cinayət hüququ.
-Cinayət prosesi.
-İnzibati hüquq.
-Kriminalistikanın əsasları.
-Kriminalogiyanın əsasları.
-BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi.
-«Polis haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Qanunu.
- «Vətəndaşların müraciətləri haqqında» Azərbaycan Respublikasının Qanunu.
-«Azərbaycan Respublikasının vətəndaşlığı haqqında» Azərbaycan Respublikasının Qanunu.

# DAXİLİ İŞLƏR ORQANLARININ ORTA RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBUL ÜÇÜN MİNİMAL FİZİKİ HAZIRLIQ NORMATİVLƏRİ

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə müvafiq olaraq, daxili işlər orqanlarında xidmətə qəbul olunan şəxslərin fiziki hazırlıq səviyyəsi müəyyən edilmiş aşağıdakı tapşırıqlar və normativlər əsasında yoxlanılır:

**Kişilər üçün**

**Qaçış:** 100 (yüz) metrə – 15 saniyə, 1000 (min) metrə – 4 dəqiqə;

**Turnikdə dartınma:**

***- çəkisi 80 kiloqramadək -*** 10 dəfə,

***- çəkisi 80 kiloqramdan yuxarı -*** 6 dəfə;

***Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi*** – 20 dəfə;

***Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi*** –20 dəfə.

**Qadınlar üçün**

**Qaçış:** 100 (yüz) metrə – 18 saniyə, 1000 (min) metrə – 5 dəqiqə;

***Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi*** – 20 dəfə.

# SAĞLAM HƏYAT UĞRUNDA

**Sabunçu Rayon Polis İdarəsinin təşkilatçılığı ilə narkomaniyayla mübarizəyə həsr olunmuş və devizi "Bizim seçimimiz sağlam həyatdır" başlıqlı növbəti tədbir Bilgəh qəsəbəsindəki 11 saylı inteqrasiya təlimli internat məktəbində keçirildi.**

Məktəbin direktoru Gülnarə Abdullayeva bəşəriyyətin gələcəyi üçün ən dəhşətli bəla olan narkomaniyaya qarşı mübarizədə yalnız dövlətin deyil, eləcə də cəmiyyətin hər bir üzvünün fəal rol oynamasının vacibliyini önə çəkərək dedi ki, bu gün gənclərimizi "ağ ölüm"ün ağuşundan almaq, ona düçar olanları sağlam həyata qaytarmaq üçün polisin qətiyyətli mübarizəsi və keçiridiyi belə maarifləndirici tədbirlər rəğbətlə qarşılanır.



Sabunçu Rayon İcra Hakimiyyətinin nümayəndəsi Ədalət Teymurov çıxış edərək müasir dövrün sosial bəlalarından olan narkomaniya və onun fəsadları, gətirdiyi faciələr barədə geniş məlumat verdi. O, ölkəmizin qazandığı iqtisadi və siyasi uğurların əldə olunmasında gənclərin də rolunu xüsusi qiymətləndirdi.



Qeyd olundu ki, gənclərə göstərilən diqqət və qayğı dövlət siyasətinin prioritetidir. Məhz bu səbəbdəndir ki, sağlam və savadlı gəncliyin formalaşması üçün təkcə paytaxtımızda deyil, eləcə də regionlarda çox böyük işlər görülmüşdür. Gənclərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün onlarla Olimpiya idman kompleksləri, gənclər evləri tikilib və istifadəyə verilib.

Rayon Gənclər və İdman İdarəsinin rəisi Rakif Əliyev narkotizmlə və narkobizneslə mübarizə hər şeydən öncə ölkəmizin ərazi bütövlüyünün qorunması, onun suverenliyinin bərpası, cəmiyyətin sağlamlığının, dinclik və əmin-amanlığının mühafizəsi zərurətindən irəli gəldiyini bildirdi. O, tədbirin keçirildiyi internat məktəbin gözəl ənənələrinin olduğunu, bu il 25 məzundan 17-nin ali məktəblərə daxil olduğunu, hətta onlardan bir neçəsinin 600-dən yuxarı bal toplamasını da qonaqların diqqətinə çatdırdı.

Sabunçu Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Eldar İlyasov gələcəyimiz olan uşaqlara narkotacirlərin toruna düşməməyi tövsiyə etdi. Dedi ki, ölümün sindromu olan narkomaniya ilə mübarizə aparmaq o qədər də asan məsələ deyil. Narkotik maddə alverçiləri bir növ "ölüm kabusları"dır.

Tədbirdə erkən nikaha daxilolma məsələsinə toxunuldu, bu kimi neqativ hallara qarşı təhsil müəssisələrində, ictimai yerlərdə, kütləvi informasiya vasitələrində davamlı izahat-maarifləndirmə və ictimai qınaq tədbirlərinin keçirilməsinin vacibliyi önə çəkildi.

Çıxış edənlər dini radikalizmdən də söz açaraq onun təhlükəliliyini və din pərdəsi altında cinayət əməlləri törədənlərin hədəfində gəncliyin olduğunu diqqətə çatdırdılar.

Sonda şagirdləri maraqlandıran suallar cavablandırıldı.

*Hafiz Təmirov, polis mayoru*



**Bu günlərdə İtaliyanın Milan şəhərində WFC döyüş növləri üzrə dünya çempionatı keçirilib. 40 ölkədən 400-dən artıq idmançı qələbə uğrunda inamla mübarizə aparıb.**

# MEDAL QAZANDI

DİN-in Maddi Texniki Təminat Baş İdarəsinin əməkdaşı, polis serjantı Fariz Nəbiyev yüksək fiziki və texniki hazırlıq nümayiş etdirib. Təmsilçimiz Monako və İtaliyadan olan idmançıları məğlub edərək dünya çempionatının bürünc medalına sahib olub.

F.Nəbiyev artıq 20 ildir ki idmanla məşğul olur. Əlbəyaxa döyüş üzrə 2 dəfə dünya, 1 dəfə Avropa çempionudur. Respublika birinciliklərində də 12 dəfə qızıl medal qazanıb. Dəfələrlə beynəlxalq turnirlərdə baş mükafata layiq görülüb.

O, əlbəyaxa döyüşdən başqa idmanın karate və kikboksinq növləri ilə də məğul olur.

İdman ustası F.Nəbiyevin yetirmələri də uğurlar əldə edir, aralarında Avropa çempionu da var.

*H.Zeyni*

# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il tarixlərə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

**2020-ci ilin I yarısı üçün "Mübariz keşikdə"yə- öz qəzetinizə abunə olmağa tələsin!**



**Astara Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Rayon Mədəniyyət Mərkəzində "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirmə tədbiri keçirilib.**

# POLİSLƏR DEDİLƏR...

Əvvəlcə tədbir iştirakçıları Astara Dövlət Rəsm Qalereyasının gənc və həvəskar rəssamlarının zərərli vərdişlərin insana fiziki və mənəvi cəhətdən mənfi təsirləri barədə çəkdikləri rəsmlərə baxıblar əl işlərinə baxıblar.



Sonra narkotik vasitələrin səbəb olduğu fəsadlar və dağıdıcı təsirlər barədə videoçarx nümayiş olunub.

Astara RPŞ-nin rəisi, polis polkovniki Azər Cahangirov əsrin bəlası olan narkomaniyaya qarşı mübarizəni təmin etmək məqsədilə belə tədbirlərin keçirilməsinin mühüm əhəmiyyətə malik olduğunu bildirib. Şöbə rəisi deyib ki, hər kəs gənc nəslin sağlam böyüməsinə, bilik və bacarıqlarını inkişaf etdirmələrinə, onların Vətənə layiqli övlad kimi yetişməsinə çalışmalıdır.

Qeyd olunub ki, məhz bu səbəbdən məktəblərdə, təlim-tərbiyə müəssisələrində, ayrı-ayrı kollektivlərdə izahat və maarifləndirmə işləri müntəzəm aparılmalı, həm təhsilə, həm də idmana diqqət azaldılmamalıdır.

Daha sonra çıxış edən Rayon İcra Hakimiyyətinin Hüquq şöbəsinin müdiri Bəsti Əliyeva, Rayon Gənclər və İdman İdarəsinin rəisi Ərçə Əliyev, RPŞ-nin şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis mayoru Bəxtiyar Ağayev, RMX baş həkiminin müavini Oqtay Əmənullayev və başqaları polis əməkdaşları tərəfindən məktəblilərlə görüşlərin keçirilməsini yüksək qiymətləndirib, şagirdləri belə həssas mövzulara diqqətlə yanaşmağa, verilən dəyərli tövsiyələrə əməl etməyə çağırıblar.

*Məhəmməd Rzayev, polis baş leytenantı*

## Noyabr ayının 13-dən 19-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 106 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 64 cinayətin açılması təmin olunmuşdur. Axtarışda olduğuna görə ümumilikdə 156, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 2, borclu şəxs qismində axtarışda olan 86 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 20 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 24 nəfər ölmüş, 10 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 48 fakt müəyyən edilmişdir.

Nazir Vilayət Eyvazov və DİN Kollegiyasının üzvləri Daxili Təhqiqatlar İdarəsinin rəisi Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oqtay Kərimov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və şəxsi heyəti iş yoldaşları Anar Ələkbərova atası
**BAĞIR ƏLƏKBƏROVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ-nin rəisi Emin Şəkinski və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi İslam Hümbətov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Mirəziz Mirəliyev və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN-in idarə rəisi Mahal Həsənov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN A.N.Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Fərhad Süleymanov və Sadiq Gözəlov Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt ŞPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sadiq Gözəlov və Fərhad Süleymanov Sahib Mirzəyevə atası
**CABBAR MİRZƏYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəsimi RPİ-nin rəisi Mirnemət Mirbabayev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30